# İnzibati məhkəmə icraatının monitorinqinə dair hesabat

## Azərbaycan

## 2012-ci il

## Mündəricat


**I. Minnətdarlıqlar**

**II. Abbreviaturaların siyahısı**

**III. Cədvəl və diaqramların siyahısı**

**1. Giriş**

- ***İnzibati ədliyyəyə dair tematik hesabatın hazırlanmasının səbəbləri***
- ***Azərbaycanda inzibati ədliyyə sistemi***
- ***Qanunvericilik bazası***

**2. Hesabatın əhatə dairəsi və metodologiyası**

- ***Azərbaycan Respublikasının hökuməti ilə əməkdaşlıq***
- ***Məhkəmə icraatının müşahidəçiləri***
- ***İşlərin və məhkəmə proseslərinin seçilməsi***
- ***Monitorinqin və hesabatın formatı***
- ***Hesabatın əhatə dairəsi***

**3. Nəticələr**

- ***Açıq məhkəmə araşdırması hüququ***
- ***İnkvizisional prinsip***
- ***Tərəflərin bərabərliyi və çəkişmə prinsipi***

**4. Tövsiyələr**

**Əlavə: Anket Forması**

# I. Minnətdarlıqlar

ATƏT-in Bakı Ofisi ("Ofis") inzibati məhkəmə icraatının 2012-ci ildə aparılmış monitorinqinə dair hesabatın ("Hesabat") hazırlanmasına yardım göstərmiş şəxslərə, o cümlədən Ədliyyə Nazirliyinə, Məhkəmə Hüquq Şurasına, inzibati-iqtisadi məhkəmələrin hakimlərinə və işçilərinə və Vəkillər Kollegiyasının nümayəndələrinə minnətdarlığını ifadə edir.

Bu Hesabat 1 yanvar 2011-ci ildən Azərbaycan Respublikasında fəaliyyət göstərən inzibati-iqtisadi məhkəmələrin işini qiymətləndirmək üçün Ofis tərəfindən hazırlanmış birinci hesabatdır. Hesabat Ofisin Qanunun Aliliyi və İnsan Hüquqları şöbəsinin ("Şöbə") tərkibində təşkil edilmiş Məhkəmə Monitorinqi qrupuna rəhbərlik etmiş xanım Nataşa Rasiç və qrup üzvləri xanım Nigar Hüseynova və cənab Cabir Əliyev tərəfindən hazırlanıb. Məhkəmə monitorinqini həyata keçirən qrupa həmçinin altı məhkəmə müşahidəçisi və Məhkəmə Monitorinqi Proqramının koordinatorları cənab Cabir Əliyev və cənab Bəhruz Quliyev daxil olub. Onlar faktlara dair məlumatları birbaşa toplayaraq onların qüvvədə olan qanunvericiliyə, beynəlxalq norma və standartlara uyğunluğunu təhlil ediblər. Qanunun Aliliyi və İnsan Hüquqları şöbəsinin ("Şöbə") keçmiş rəhbəri və hal-hazırda Ofisin rəhbərinin müavini vəzifəsini icra edən xanım Monika Martinez və 2013-cü ilin aprel ayından Şöbəyə rəhbərlik edən cənab Covanni Qalzinyato hesabatın hazırlanmasına ümumi nəzarəti həyata keçirib.

Ofis proqram çərçivəsində bütün fəaliyyətlərini inzibati ədliyyə sahəsindəki yerli ekspertlərin verdikləri tövsiyələrə və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) tərəfindən hazırlanmış məhkəmə proseslərinin monitorinqinə dair metodoloji vəsaitlərə uyğun olaraq həyata keçirib.[1] Ofis hesabatı Ədliyyə Nazirliyi və ixtisaslaşmış İşçi qrupu ilə sıx əməkdaşlıq şəraitində hazırlayıb. Həmin qrupun tərkibinə Nazirlik, Məhkəmə Hüquq Şurası, Vəkillər Kollegiyası və məhkəmə orqanlarının nümayəndələri daxil olublar. İşçi qrupu Ofisin Məhkəmə Monitorinqi qrupunun topladığı məlumatları müzakirə edərək hesabatın daha dəqiq olmasına yardım göstəriblər.

Nəhayət, Ofis hesabatın hazırlanmasında büdcədənkənar alicənab yardımlarına və Ofisin məhkəmə monitorinqi proqramının həyata keçirilməsində daimi dəstəklərinə görə Finlandiya və Norveç hökumətlərinə minnətdarlığını bildirir.

---

[1] ODIHR *Trial Monitoring: A Reference Manual for Practitioners*, 2008, (2012-ci ildə yenilənib). İngiliscə elektron versiya üçün bax: http://www.osce.org/odihr/item 11 30849.html; və *Handbook for Monitoring Administrative Justice*, DTİHB və *Folke Bernadotte* akademiyasının birgə nəşri.

## II. Abbreviaturaların siyahısı

AŞ – Avropa Şurası

İHAK – İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası

AİHM – Avropa İnsan Hüquqları Məhkəməsi

MSHBP – Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt

MHŞ – Məhkəmə Hüquq Şurası

İPM – İnzibati Prosessual Məcəllə

HRM – Hüquq Resurs Mərkəzi

ƏN – Ədliyyə Nazirliyi

DTİHB – Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu

Ofis – ATƏT-in Bakı Ofisi

ATƏT – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

BMT – Birləşmiş Millətlər Təşkilatı

İHÜB – İnsan hüquqları haqqında Ümumi Bəyannamə

## III. Cədvəl və diaqramların siyahısı

Diaqram 1. Ədliyyə Nazirliyinin məlumatlarına əsasən, 2012-ci ildə inzibati-iqtisadi məhkəmələrin qəbul etdiyi qərarların növləri

Diaqram 2. 2012-ci ildə monitorinq olunmuş inzibati işlər

Diaqram 3. 2012-ci ildə monitorinq olunmuş məhkəmə iclasları

Cədvəl 4. İşlərin və iclasların məhkəmələr üzrə sayı

Diaqram 5. Monitorinq aparılmış işlərdə cavabdeh qismində çıxış edən inzibati orqanlar

Diaqram 6. Monitorinq aparılmış işlərdə inzibati-iqtisadi məhkəmələrin qəbul etdiyi qərarların növləri

Diaqram 7. Hazırlıq icraatı mərhələsində hakimlərin proses iştirakçılarından əlavə məlumat və (və ya) sübutlar istədiyi işlər

Diaqram 8. Hakimlərin öz təşəbbüsü ilə üçüncü şəxsləri məhkəmə iclasına çağırdığı işlər

Diaqram 9. Hazırlıq icraatında hakimlərin işin mahiyyətini və (və ya) mübahisələrin statusunu tərəflərlə müzakirə etdiyi işlər

Diaqram 10. İşə mahiyyəti üzrə baxılması mərhələsində hakimlərin proses iştirakçılarından əlavə məlumat və (və ya) sübutlar istədiyi işlər

Diaqram 11. Hakimlərin üçüncü şəxslərdən əlavə məlumat və (və ya) sübutlar istədiyi işlər

## 1. Giriş

**İnzibati ədliyyəyə dair tematik hesabatın hazırlanmasının səbəbləri.** Ofisin Qanunun Aliliyi və İnsan Hüquqları şöbəsi bu hesabatı yeni yaradılmış inzibati-iqtisadi məhkəmələrin işinin daxili qanunvericiliyə, ATƏT qarşısındakı öhdəliklərə və digər beynəlxalq standartlara uyğunluğunun qiymətləndirilməsində Ədliyyə Nazirliyinə kömək etmək məqsədi ilə hazırlayıb.

Bu baxımdan hesabat hökumətin "Azərbaycan ədliyyəsinin inkişafına dair Dövlət Proqramı" və "İnsan hüquqları sahəsində Milli Fəaliyyət Planı" əsasında ölkədə inzibati ədliyyə sisteminin gücləndirilməsi ilə bağlı müəyyən etdiyi prioritetlərə uyğundur.[2]

Bundan əlavə, Ofis, bu hesabatı ədliyyə sahəsinin daha da inkişaf etdirilməsində hökumətə kömək etmək və nəticə etibarı ilə ATƏT prinsiplərinə, ATƏT qarşısındakı öhdəliklərə və digər beynəlxalq standartlara riayət edilməsini gücləndirilmək mandatına[3] uyğun olaraq hazırlayıb.

**Azərbaycanda inzibati ədliyyə sistemi.**[4] 2011-ci ilin yanvarında yeni yaradılmış inzibati-iqtisadi məhkəmələr Bakı (iki məhkəmə), Gəncə, Sumqayıt, Şəki, Şirvan və Naxçıvan Muxtar Respublikasında fəaliyyətə başlamışdır.[5]

Ədliyyə Nazirliyi tərəfindən təqdim edilmiş statistik məlumatlara görə, inzibati-iqtisadi məhkəmələrə 2011-ci ilin sonunadək ümumilikdə 6.818 iddia ərizəsi daxil olub, bunlardan 4.665 iddia ərizəsi üzrə qərar çıxarılıb, o cümlədən 2.084 iddiaya mahiyyəti üzrə baxılıb. Mahiyyəti üzrə baxılmış iddia ərizələrindən 1.752-si məhkəmələr tərəfindən təmin, 332-si rədd isə edilib. 2012-ci ildə iddia ərizələrinin sayı 1,6 dəfə artaraq ümumilikdə 11.205-ə çatıb, bunlardan 2012-ci ilin sonunadək 8.734 iddia ərizəsi üzrə qərar çıxarılıb, o cümlədən 4.773 iddiaya mahiyyəti üzrə baxılıb. Sonunculardan 3.832-si məhkəmələr tərəfindən təmin, 941-i isə rədd edilib.

---

[2] "Azərbaycan ədliyyəsinin inkişafına dair Dövlət Proqramı" və "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı", müvafiq olaraq, Prezidentin 6 fevral 2009-cu il və 27 dekabr 2011-ci il tarixli sərəncamları ilə təsdiq edilib.

[3] Ofisin mandatı ATƏT-in Daimi Şurasının 16 noyabr 1999-cu il tarixli 318 saylı qərarı ilə, habelə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və Azərbaycan Respublikasının hökuməti tərəfindən imzalanmış 19 iyun 2000-ci il tarixli anlaşma memorandumu əsasında müəyyən edilib.

[4] Əlavə məlumat üçün bax: Fərhad Mehdiyev, İnzibati Hüquq, Qafqaz Universitetinin nəşri, Bakı, 2010, səh. 317-344.

[5] "Məhkəmələr və hakimlər haqqında" Qanuna 22 iyun 2010-cu ildə edilmiş dəyişikliklərə bax. Həmçinin Prezidentin 15 iyul 2010-cu il və 9 avqust 2010-cu il tarixli fərmanlarına, o cümlədən dəyişikliklərin tətbiqinə şərait yaradılması üçün müvafiq normativ aktların hazırlanmasına dair göstərişlərə bax.

Yuxarıdakı statistik məlumatlar göstərir ki, 2011 və 2012-ci illərdə məhkəmələr baxdıqları işlərdə iddiaların böyük bir hissəsini təmin ediblər[6]. 2011-ci ildə baxılmış işlərin ümumi sayının yalnız 44%-ində və 2012-ci ildə baxılmış işlərin ümumi sayının yalnız 54%-ində mahiyyəti üzrə yekun qərar qəbul edilib. Qalan hallarda hakimlər işə mahiyyəti üzrə baxmayıblar və həmin işlər müvafiq qərardadlarla yekunlaşdırılıb. Qərardalar isə Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinə (İPM) uyğun olaraq barışıq sazişinin təsdiqlənməsi,[7] iddianın mümkün sayılmaması,[8] aidiyyətin müəyyənləşdirilməsi,[9] habelə iddiadan imtina edilməsi və iddianın məhkəmə tərəfindən geri götürülmüş sayılması [10] haqqında olub.

**Diaqram 1**




---

[6] 2011-ci ildə 84,1%, 2012-ci ildə isə 80,3%.
[7] İPM, maddə 66.
[8] İPM, maddə 35.
[9] İPM, maddə 8.2.
[10] İPM, maddə 55.5.

**Qanunvericilik bazası.** Məhkəmələr inzibati mübahisələrə İPM əsasında baxırlar. Bu Məcəlləyə son dəyişikliklər 12 may 2012-ci ildə edilib. Məhkəmələr inzibati işlərə baxarkən həmçinin Mülki Prosessual Məcəllənin (MPM) müəyyən müddəalarını tətbiq edə bilərlər,[11] bu şərtlə ki, onlar İPM-in müddəalarına zidd olmasın. MPM-ə son dəyişikliklər isə 6 iyul 2011-ci ildə qüvvəyə minib.

İPM-də inzibati mübahisələrə baxılması üçün üç instansiyadan ibarət məhkəmə sistemi nəzərdə tutulub:

1) Birinci instansiya məhkəmələri altı inzibati-iqtisadi məhkəmə[12] və apellyasiya məhkəmələrinin inzibati-iqtisadi kollegiyalarından ibarətdir. Sonuncular İPM-in XV ("Normativ xarakterli aktların qanunauyğunluğunun mübahisələndirilməsinə dair iddialar üzrə icraat"), XVI ("Siyasi partiyalarla bağlı mübahisələrə dair işlər üzrə icraat") ,XVII ("Kütləvi informasiya vasitələri bağlı mübahisələrə dair işlər üzrə icraat") və XVIII ("Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat") fəsillərində nəzərdə tutulmuş mübahisələrə dair iddialara birinci instansiya məhkəməsi qismində baxır.[13]

2) Apellyasiya instansiyası məhkəmələri Bakı, Sumqayıt, Şəki, Gəncə və Şirvanda yerləşən beş apellyasiya məhkəməsinin və Naxçıvan Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyalarından ibarətdir.

3) Kassasiya instansiyası məhkəməsi isə Azərbaycan Respublikasının Ali Məhkəməsi, konkret olaraq onun inzibati-iqtisadi kollegiyasıdır.

---

[11] MPM 1 sentyabr 2000-ci ildə qüvvəyə minib.

[12] İPM-in 3.1-ci maddəsinə əsasən, bu məhkəmələr, apellyasiya məhkəmələrinin inzibati-iqtisadi kollegiyalarının birinci instansiya qismində baxdığı işlər istisna olmaqla, qalan işlərə birinci instansiya məhkəməsi qismində baxırlar.

[13] İPM, maddə 3.2.

## 2. Hesabatın əhatə dairəsi və metodologiyası

***Azərbaycan Respublikasının hökuməti ilə əməkdaşlıq.*** Ofis inzibati məhkəmə icraatının monitorinqinə dair birinci hesabatı ölkədə yeni yaradılmış inzibati məhkəmələrin işinin qiymətləndirilməsində Ədliyyə Nazirliyinə (ƏN) kömək etmək məqsədi ilə inzibati ədliyyə sistemini əhatə edən pilot hesabat kimi hazırlayıb.

Ofis layihənin əhatə dairəsini ƏN ilə müzakirə edib. Bundan başqa, inzibati-iqtisadi məhkəmələrin sədrlərinə müraciət edərək pilot layihə barədə onlara məlumat verib və məhkəmə icraatının monitorinqini aparan müşahidəçilərin məhkəmə proseslərinə buraxılmasını və lazımi hallarda onlara məhkəmə işlərinə dair məlumat verilməsini xahiş edib.

***Məhkəmə icraatının müşahidəçiləri.*** 2012-ci ilin aprelində Ofis Bakıdakı iki inzibati-iqtisadi məhkəmədə inzibati işlərin monitorinqi üçün dörd müşahidəçi təyin edib. 2012-ci ilin iyulundan etibarən isə Gəncə, Sumqayıt, Şəki və Şirvan bölgələrində fəaliyyət göstərən məhkəmələrin fəaliyyətinin monitorinqi üçün daha dörd müşahidəçi təyin edilib.

Seçilmiş bütün məhkəmə müşahidəçiləri və monitorinqin koordinatorları Ofisin həyata keçirdiyi məhkəmə icraatının monitorinqi proqramı çərçivəsində məhkəmə iclaslarının monitorinqi sahəsində geniş təcrübə əldə ediblər. Bundan əlavə, onlar inzibati məhkəmə işlərinin monitorinqi üçün xüsusi tələblərlə bağlı bilik və bacarıqların artırılması məqsədi ilə 2011-ci ilin oktyabrında Ofisin təşkil etdiyi inzibati ədliyyəyə dair xüsusi təlimlərin iştirakçısı olublar.[14] Məhkəmə müşahidəçilərinin monitorinq bacarıqlarını daha da inkişaf etdirmək məqsədilə Ofis, 2012-ci ilin iyulunda DTİHB və Folke Bernadott Akademiyası ilə əməkdaşlıq şəraitində inzibati icraatın monitorinqinə dair əlavə təlimlər təşkil etmişdir. Bu təlimlər Ofisin məhkəmə icraatının monitorinqi qrupuna yardım məqsədini daşıyıb.

***İşlərin və məhkəmə proseslərinin seçilməsi.*** Məhkəmə Monitorinqi qrupu məhkəmə binalarında divardan asılmış məlumat lövhələrindəki işlərin siyahısından monitorinq aparılacaq işləri təsadüfi seçmə metodu əsasında seçib. Məhkəmə müşahidəçiləri məhkəmə işlərini hazırlıq mərhələsindən hakimin qərar çıxardığı yekun mərhələyədək izləyiblər.

---

[14] Ofis inzibati işlərin araşdırılması üzrə ixtisaslaşan və Almaniya Beynəlxalq İnkişaf Agentliyinin (*GIZ*) keçmiş rəhbəri kimi Azərbaycanda geniş iş təcrübəsinə malik olan almaniyalı hakimi təlimçi (trener) qismində təlimlərə cəlb edib.

***Monitorinqin və hesabatın formatı.*** Ofis müşahidəçiləri məhkəmə icraatının monitorinqi ilə bağlı əhatəli anket forması ilə təchiz etmişdir. Anket daxili qanunvericilik, ATƏT qarşısındakı öhdəliklər və digər beynəlxalq standartlar, habelə "İnzibati Ədliyyənin monitorinqinə dair məlumat kitabçası"na daxil edilmiş müsbət təcrübələr əsasında hazırlanmışdır. Müşahidəçilər ATƏT-in məhkəmə proseslərinin monitorinqinə dair standartlarına uyğun olaraq işin mahiyyəti ilə bağlı hər hansı qiymətləndirmə aparmadan faktlar barədə məlumatları obyektiv və qərəzsiz şəkildə toplamışdır. Daha sonra Məhkəmə Monitorinqi qrupu toplanmış məlumatları daxili qanunvericiliyə və qüvvədə olan beynəlxalq standartlara uyğun olaraq təhlil etmişdir..

***Hesabatın əhatə dairəsi.*** Hesabata 2 aprel 2012-ci ildən 30 noyabr 2012-ci ilədək monitorinq aparılmış məhkəmə işlərinə dair məlumatlar daxil edilib. Monitorinq bütövlükdə Azərbaycan ərazisində altı inzibati-iqtisadi məhkəməni: Bakıdakı iki inzibati-iqtisadi məhkəməni və Gəncə, Sumqayıt, Şəki və Şirvandakı inzibati-iqtisadi məhkəmələri əhatə edir.

Monitorinq dövründə məhkəmə müşahidəçiləri ümumilikdə 68 məhkəmə işi və 179 məhkəmə iclasını müşahidə ediblər. Monitorinq çərçivəsində Bakıdakı inzibati-iqtisadi məhkəmələrdə 35 iş (104 məhkəmə iclası), regional inzibati-iqtisadi məhkəmələrdə 33 iş (75 məhkəmə iclası) müşahidə edilib. Monitorinq məlumatlarına həmçinin Bakı apellyasiya məhkəməsinin inzibati-iqtisadi kollegiyasının baxdığı iki iş (9 məhkəmə iclası) daxil edilib.

Coğrafi əhatə dairəsi baxımından Ofis, paytaxt Bakı ərazisindəki işlərə buradakı məhkəmələrin iş yükünün ağırlığını nəzərə alaraq daha geniş yer ayırıb. Seçilmiş konkret işlərə gəlincə, Ofis inzibati-iqtisadi məhkəmələrdəki monitorinqin mümkün qədər müxtəlif xarakterli prosesləri əhatə etməsinə xüsusi səy göstərib.

İnzibati məhkəmə icraatının monitorinqindən əlavə olaraq Məhkəmə Monitorinqi qrupu inzibati-iqtisadi məhkəmələrin sədrləri və hakimləri ilə görüşərək yeni yaranmış məhkəmələrdəki problemlər və 2012-ci il ərzində inzibati ədliyyə sahəsində əldə edilmiş irəliləyişlər ilə bağlı onların rəyini öyrənmişdir. Ofis həmçinin 2012-ci ildə inzibati mübahisələrlə bağlı məhkəmələrdə baxılmış işlərin sayı barədə ƏN tərəfindən təqdim edilmiş statistik məlumatları bu hesabata daxil etmişdir.

**Diaqram 2**




**Diaqram 3**



**Cədvəl 4**

**İşlərin və iclasların məhkəmələr üzrə sayı**

| **Məhkəmənin adı** | | **İşlər** | **İclaslar** |
|---|---|---|---|
| 1 | Bakı Apellyasiya Məhkəməsi | 2 | 9 |
| 2 | 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi | 15 | 41 |
| 3 | 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi | 20 | 63 |
| 4 | Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi | 20 | 47 |
| 5 | Gəncə İnzibati-İqtisadi Məhkəməsi | 6 | 9 |
| 6 | Şəki İnzibati-İqtisadi Məhkəməsi | 4 | 7 |
| 7 | Şirvan İnzibati-İqtisadi Məhkəməsi | 1 | 3 |
| Ümumi say | | 68 | 179 |

**Diaqram 5**




*Digər orqanlara bunlar daxildir: Maliyyə Nazirliyi, Vəkillər Kollegiyası, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Neft Akademiyası və Səhiyyə Nazirliyi.

**Diaqram 6**




*Qərardadlar aşağıdakı kimi bölünüb: barışıq sazişi (1 iş), iddianın mümkünsüzlüyü (6 iş), iddianın məhkəmə aidiyyəti ilə əlaqədar rədd edilməsi (2 iş) və iddiaçının iddia tələbini geri götürməsi (7 iş).

## 3. Nəticələr

- ***Açıq məhkəmə araşdırması hüququ***

Açıq məhkəmə araşdırması hüququ Azərbaycan Konstitusiyasının 127-ci maddəsi (V bənd), İPM-in 17-ci maddəsi və məhkəmələrin fəaliyyətini tənzimləyən daxili qaydalarla təmin olunur. Tərəflərin şəxsi və ya ailə həyatının toxunulmazlığının təmin edilməsi, yaxud prosesin müəyyən iştirakçılarının konkret məlumatlarının və ya maraqlarının qorunması məqsədi ilə məhkəmə iclasının qapalı keçirilməsi üçün əsaslı səbəblərin olduğu hallar istisna olmaqla, inzibati məhkəmə icraatı da ictimaiyyət üçün açıqdır.

Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) presedent hüququna görə məhkəmə binalarına, o cümlədən məhkəmə iclası zallarına şəxslərin buraxılmasına əsassız məhdudiyyətlərin qoyulması İnsan hüquqları haqqında Avropa Konvensiyasının (İHAK) 6-cı maddəsinin 1-ci bəndində və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın (MSHBP) 14-cü maddəsində nəzərdə

tutulmuş ədalətli məhkəmə araşdırmasına dair tələbləri pozur. Məhkəmə iclaslarının aşkarlıq şəraitində keçirilməməsi, girişi məhdudlaşdırılan yerlərdə iclasların aparılması, məhkəmə zalının sahəsinin yetərincə geniş olmaması və (və ya) məhkəmə zalına giriş üçün əsassız məhdudiyyətlərin qoyulması İHAK-da və MSHBP-də nəzərdə tutulmuş aşkarlıq tələblərinin pozulması ilə nəticələnə bilər. Bununla yanaşı, ictimaiyyət məhkəmə iclaslarında iştirak edə bilmək üçün keçiriləcək iclasların günü və vaxtı barədə qabaqcadan məlumat əldə etmək imkanına malik olmalı və məhkəmə iclasları haqqına elan lövhələrində bu barədə məlumatlar əks olunmalıdır.

### *Monitorinq aparılan işlərdə müşahidə olunmuş praktika*

***İctimaiyyətin məhkəmə işləri barədə məlumat əldə etmək imkanı.*** Məhkəmə Monitorinqi qrupu müəyyən edib ki, inzibati-iqtisadi məhkəmələrdə məhkəmə iclasları barədə məlumatlar müvafiq məhkəmələrin binalarında quraşdırılmış adi  vəya elektron lövhələrdə[15] yerləşdirilir. Bundan əlavə, Ədliyyə Nazirliyi əhalinin məhkəmələrə çıxışını asanlaşdırmaq üçün 2011-ci ilin noyabrında yeni İnternet portalı yaradıb.[16] Portala Azərbaycanın istənilən məhkəməsində baxılacaq işlərə dair xüsusi bölmə daxil edilib. Lakin bu Hesabat tərtib edilərkən həmin bölmə aktiv deyildi.

Məhkəmə Monitorinqi qrupu qeyd edir ki, baxılacaq işlər barədə məlumatların yerləşdirilməsi qaydası ayrı-ayrı məhkəmələrin praktikasında fərqlənir. Belə ki, Gəncə, Şirvan və Şəki inzibati-iqtisadi məhkəmələri baxılacaq işlərin siyahısını həftəlik qaydada tərtib edərək hər bazar ertəsi elanlar lövhəsinə yerləşdirdiyi halda,  Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi və 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi baxılan işlərin siyahısını gündəlik elan edirlər.

Bundan başqa, monitorinq qrupu baxılacaq işlərin istər məhkəmələrdəki adi lövhələrdə, istərsə də elektron lövhələrdə yerləşdirilmiş siyahılarında çatışmazlıqlar olduğunu müşahidə etmişdir.[17] Misal üçün, 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi hazırlıq icraatı barədə məlumatları elektron lövhədə bir qayda olaraq yerləşdirmir. Məhkəmə katibləri adətən monitorinq qrupuna məhkəmə iclasları barədə məlumat versələr də, bir sıra hallarda hazırlıq iclasları , o cümlədən mahiyyəti üzrə baxılacaq işlər barədə məlumat əldə etmək mümkün olmamışdır. .

---

[15]1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi.
[16] www.courts.gov.az.
[17]Hesabat dövründə 1 saylı İnzibati-İqtisadi Məhkəməsi ndəki elektron lövhə bir ay ərzində, yəni 2012-ci il sentyabrın 15-dən oktyabrın 15-dək işləməməmişdir.

Monitorinq qrupu Bakıdaki inzibati-iqtisadi məhkəmələrin məlumat lövhələrində məhkəmə sədrləri tərəfindən baxılacaq işlər barədə məlumatların elan olunmadığını müşahidə edib.
Müsbət məqam olaraq qeyd edilməlidir ki, 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi istisna olmaqla bütün inzibati-iqtisadi məhkəmələrdə iclasların elan olunduğu siyahılara işlər haqqında qısa məlumatlar da daxil edilmişdir.

Baxılacaq işlər barəda qabaqcadan məlumat verməkdən başqa, məhkəmələr həmçinin yekunlaşmış işlər haqqında məlumatları da elan etmək vəzifəsini daşıyırlar. Belə ki, birinci instansiya məhkəmələri qərar qəbul etdikdən sonra on gündən gec olmayaraq qərarların elektron versiyalarını saytda yerləşdirməlidirlər. "Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası"na[18] əsasən, məhkəmələr bu praktikaya "Qayda"nın qüvvəyə mindiyi 1 yanvar 2012-ci il tarixindən başlamalı idilər. Lakin Hesabat hazırlandığı dövrdə monitorinq qrupu 1-ci instansiya məhkəmələrinin internet səhifələrində heç bir qərara rast gəlməmişdir..

### *İclas zallarına buraxılma*

Məhkəmə Monitorinqi qrupu inzibati-iqtisadi məhkəmələrdə ictimaiyyətin iclas zallarına buraxılması şərtinə adətən riayət edildiyini müşahidə etmişdir. Monitorinq qrupu istisna hal olaraq Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin iki binasından birinə daxil olmağa qoyulmuş məhdudiyyətləri qeyd edir. Adı çəkilən məhkəmədə mühafizə əməkdaşlarının yalnız proses iştirakçılarının məhkəmə binasına daxil olmasına icazə verdiyi müşahidə edilmişdir. .
Məhkəmə Monitorinqi qrupu həmçinin qeyd edir ki, istisna hal olaraq bir neçə məhkəmə iclası iclas zallarından kənarda- hakimlərin kabinetində keçirilib.

- ### *İnkvizisional prinsip*

İPM-də inzibati məhkəmə icraatının həm inkvizisional, həm də çəkişmə prinsipi əsasında həyata keçirilməsi nəzərdə tutulub. İnkvizisional prinsipə görə, məhkəmə işə mahiyyəti üzrə baxarkən konkret mübahisə üçün əhəmiyyət daşıyan bütün faktları araşdırmalı, tərəflərin təqdim etdikləri vəsatət və dəlillərlə kifayətlənməməlidir.
Məhkəmə öz təşəbbüsü ilə, yaxud proses iştirakçılarına vəsatətinə əsasən digər zəruri sübutları toplamalıdır.[19] İnzibati məhkəmələr qanunla qorunan maraqları pozula biləcək şəxsləri öz

[18] Prezidentin 16 fevral 2011-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir
[19] İPM, maddə 12.

təşəbbüsü ilə inzibati icraata üçüncü şəxs qismində cəlb edə bilər.[20] Bundan əlavə, hakimlər istənilən vaxt müvəqqəti xarakterli müdafiə barədə qərardadı dəyişdirə və ya ləğv edə bilərlər, bu şərtlə ki, belə qərar üçün kifayət qədər əsaslar olsun.[21]

### *Monitorinqaparılmış işlərdə müşahidə edilən praktika*

Məhkəmə Monitorinqi qrupu müşahidə zamanı hakimlərin inkvizisional səlahiyyətlərini tətbiq etməkdə fəal olmadıqlarını qeyd etmişdir. Müşahidəsi aparılmış işlərin böyük bir hissəsində hakimlər proses iştirakçılarından müəyyən hadisələrə dair faktlar barədə məlumat verməyi və ya sübutetmə vasitələrini göstərməyi, onun sərəncamında olan sübutları təqdim etməyi tələb etməyiblər. Müşahidə olunan 57 hazırlıq iclasından yalnız 18-də[22] hakimlər tərəflərdən iddianın mahiyyətinə dair məlumat və ya sübut təqdim etməyi tələb ediblər. Bundan başqa, müşahidəsi aparılmış 52 məhkəmə baxışının yalnız 16-da[23] hakimlər tərəflərdən iddia tələbləri ilə bağlı əlavə məlumat və (və ya) sübut təqdim etməyi tələb edib. Bu məsələ ilə bağlı xüsusi qeyd edilməlidir ki, inzibati orqanların işin ədalətli həlli üçün mühüm əhəmiyyət daşıyan sənədləri və ya digər məlumatları məhkəmələrə təqdim etmədiyi hallar müşahidə olunub.

Məhkəmə Monitorinqi qrupunun müşahidələrinə görə, hakimlər öz təşəbbüsləri ilə üçüncü şəxslərdən əlavə məlumat və sübut istəməkdə də fəallıq göstərməyiblər. Bu hal monitorinq aparılmış 52 işdən 41-də müşahidə edilib.[24] Monitorinq qrupu həmçinin qeyd edir ki, hakimlər üçüncü şəxsləri məhkəmə icraatına cəlb etmək barədə də istəkli olmayıblar. Monitorinq aparılmış 57 işdən yalnız iksində[25] üçüncü şəxs qismində cəlbetmə haqqında qərar verilib. Müsbət hal olaraq qeyd etmək lazımdır ki, monitorinq keçirilmiş işlərin böyük bir hissəsində hakimlər işin mahiyyəti barədə tərəflərə izah vermiş və mübahisənin barışıq yolu ilə həllini təklif etmişlər. Müşahidələrə əsasən, monitorinq aparılmış 57 işdən 45-də[26] hakimlər hazırlıq icraatı mərhələsində işin mahiyyətini müzakirə etmişlər.[27]

---

[20] İPM, maddə 28.
[21] İPM, maddə 44.
[22] Monitorinq olunmuş məhkəmə proseslərinin 31,5%-ində.
[23] Monitorinq olunmuş məhkəmə proseslərinin 30%-ində.
[24] Monitorinq olunmuş məhkəmə proseslərinin 78,8%-ində.
[25] Monitorinq olunmuş məhkəmə proseslərinin 3,5%-ində.
[26] Monitorinq olunmuş məhkəmə proseslərinin 78,9%-ində.
[27]İPM-in 13-cü maddəsinə əsasən, "məhkəmə qaldırılan iddialarda yol verilən formal xətaların aradan qaldırılmasında, aydın olmayan iddia tələblərinin dəqiqləşdirilməsində, yanlış iddia növlərinin münasibləri ilə əvəz olunmasında, natamam faktiki məlumatların tamamlanmasında, eləcə də işin hallarının müəyyənləşdirilməsi və qiymətləndirilməsi baxımından əhəmiyyət kəsb edən izahatların təqdim olunmasında proses iştirakçılarına yardım etməyə borcludur".

**Diaqram 7**




**Diaqram 8**



**Diaqram 9**




**Diaqram 10**



**Diaqram 11**




- ***Tərəflərin bərabərliyi və çəkişmə prinsipi***

Tərəflərin bərabərliyi prinsipi, tərəflərin hər birinə onu qarşı tərəfin önündə əhəmiyyətli dərəcədə əlverişsiz vəziyyətə salmayan şəraitdə öz mövqeyini müdafiə etməsini, o cümlədən sübutlar təqdim etmək üçün lazımi imkanın yaradılmasını tələb edir.[28]

Beləliklə, məhkəmələr tərəflərin prosessual bərabərliyini təmin etməlidirlər. Beynəlxalq standartlara əsasən: "Məhkəmə prosesləri çəkişmə xarakteri daşımalıdır. Məhkəmə tərəfindən qəbul edilmiş bütün sübutlar barədə tərəflərə məlumat verilməlidir ki, onlar əks arqumentlərini irəli sürə bilsinlər".[29] Azərbaycanın daxili qanunvericiliyinə əsasən, tərəflərin bərabərliyi və

[28] *Werner v Austria* [1997] ECHR 92, para 63; *Coëme and Others v Belgium* [2000] ECHR 250, para 102; *G. B. v France* [2001] ECHR 564, para 58. cited in Legal Digest of International Fair Trial Rights, OSCE/ODIHR, 2012, s.110.

[29] Avropa Şurasının "İnzibati aktlar üzərində məhkəmə nəzarəti haqqında" tövsiyəsi (4(d) bəndi), 15 dekabr 2004-cü ildə Nazirlər Komitəsi tərəfindən qəbul edilib.

çəkişmə prinsipi Konstitusiyanın 127-ci maddəsinin II və VII bəndləri və İPM-in 11 və 15.1-ci maddələri ilə tənzimlənir.

Qeyd edilməlidir ki, inzibati mübahisələrdə dövlət hakimiyyətini təmsil edən tərəfin sıravi vətəndaşlar qarşısında imtiyazlı mövqeyi səbəbi ilə inzibati icraat zamanı bərabərlik prinsipinin pozulması təhlükəsi xüsusilə yüksəkdir.

AİHM qərarlarına görə tərəflərin bərabərliyi prinsipi aşağıdakı hallarda pozula bilər: a) proses iştirakçısı iş üçün əhəmiyyətli məlumatlarla tanış olmaqda qarşı tərəfə nisbətən üstünlüklərə malikdirsə;[30] b) iş üçün əhəmiyyətli məlumatlara malik olan şəxs məhkəmə prosesində ərizəçilərə kömək edə biləcək sənədlərlə onların tanış olmasına mane olursa və ya həmin sənədlərin mövcudluğunu yalandan inkar edirsə;[31] c) ərizəçinin sənədləri oxumasına icazə verilir, amma onların surətlərinin alınmasına, onlardan qeydlər götürülməsinə və məhkəmə prosesində onlardan istifadəyə icazə verilmirsə;[32] d) tərəflərdən birinin şahidləri çağırmaq hüququ digər tərəflə müqayisədə məhdudlaşdırılırsa;[33] və e) məhkəmənin icraatında olan hüquqi mübahisənin məhkəmə tərəfindən həllinə təsir göstərmək məqsədi daşıyan qanun qəbul edilirsə.[34]

### *Monitorinq aparılmış işlərdə müşahidə edilən praktika*

Məhkəmə Monitorinqi qrupu məhkəmələrin ümumən tərəflərin bərabərliyi prinsipinə riayət etdiklərini müşahidə edib. Belə ki, müşahidə nəticələrinə görə iddiaçı və cavabdehlərin təqdim etdiyi vəsatətlərin məhkəmələr tərəfindən təmin və rədd nisbəti bir-birinə yaxındır. Monitorinq qrupu qeyd edir ki, tərəflər hazırlıq icraatı mərhələsində vəsatət verməyə ümumiyyətlə meyilli olmayıblar. Monitorinq məlumatlarına görə, müşahidə edilmiş 61 hazırlıq icraatından 46-da[35] tərəflər passiv qalaraq heç bir vəsatət qaldırmayıblar. Yerdə qalan 15 iclasda isə cəmi 19 vəsatət qaldırılıb. Müsbət məqam olaraq qeyd edilməlidir ki, hakimlər iddiaçıların verdiyi 14 vəsatətdən onunu, cavabdehlərin verdiyi beş vəsatətdən isə üçünü təmin ediblər.

---

[30] *Yvon v. France* (2003).
[31] *McGinley and Egan v. United Kingdom* (1998).
[32] *Matyjek v. Poland* (2006).
[33] Konvensiyanın 6-cı maddəsi mülki prosesdə şahidlərin məhkəmə tərəfindən çağırılmasını və ya digər sübutların qəbul edilməsini tələb etmək hüququnu birbaşa təmin etmir. Bununla belə, mülki proses iştirakçısının öz mövqeyini müdafiə etmək üçün şahidləri çağırmaq və digər sübutları təqdim etmək hüququna qoyulan hər hansı bir məhdudiyyət bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş ədalətli məhkəmə araşdırması tələblərinə, o cümlədən tərəflərin bərabərliyi prinsipinə uyğun olmalıdır. *Gryaznov v. Russia* (2012) para. 57.
[34] *Arnolin and Othersv. France* (2007).
[35] Monitorinq olunmuş məhkəmə proseslərinin 75,4%-ində

İşə mahiyyəti üzrə baxıldığı məhkəmə iclaslarında da nəticələr buna bənzərdir. Belə ki, tərəflər baxış iclaslarında da vəsatət verməyə meyilli olmayıblar[36]. Ofis tərəfindən monitorinq aparılan 52 baxış iclasında cəmi 17 vəsatət verilib. Hakimlər iddiaçıların verdiyi 14 vəsatətdən doqquzunu, cavabdehlərin verdiyi üç vəsatətdən isə ikisini təmin ediblər və beləliklə, tərəflərin bərabərliyi prinsipinə riayət edildiyi müşahidə edilib.

Çəkişmə prinsipinin digər mühüm aspekti tərəflərin məhkəmə prosesində iştirakıdır. İPM-in 59.2-ci maddəsinə əsasən, tərəflər şahidlərə, ekspertlərə və idarəetmə orqanlarının nümayəndələrinə suallar verə bilərlər. Buna görə də, bu prinsipə riayət edilməsini təmin etmək və proses iştirakçısının suallar verməsinə imkan yaratmaq üçün hakimlər qarşı tərəfin məhkəmə prosesində iştirakını təmin etməlidirlər. Bu kontekstdə monitorinq qrupu qeyd edir ki, müşahidə aparılmış 52 baxış iclasından 21-də[37] cavabdehin iştirak etməməsinə görə iddiaçılar cavabdehlərə suallar verə bilməyiblər.

Müşahidə aparılmış işlərin 71,1%-ində[38] hakimlər mübahisənin həm faktiki, həm də hüquqi tərəflərini proses iştirakçıları ilə müzakirə ediblər.[39] Müşahidə aparılmış işlərin 75%-ində[40] hakimlər tərəflərin vəsatət qaldırmalarına və (və ya) vəsatətlərini, yaxud tələblərini əsaslandırmalarına imkan yaradıblar.[41] Müşahidə aparılmış işlərin 96,1%-ində[42] hakimlərin proses iştirakçılarının prosessual hüquqlarını həyata keçirmələrinə tam və bərabər imkanlar yaratdıqları müşahidə olunub.

[36] Monitorinq olunmuş məhkəmə proseslərinin 72,5%-ində
[37] Monitorinq olunmuş məhkəmə proseslərinin 40,3%-ində
[38] Monitorinq olunmuş 52 məhkəmə prosesindən 37-də
[39] İPM-in 64-cü maddəsinə əsasən, hakimlər işin həm faktiki, həm də hüquqi tərəflərini proses iştirakçıları ilə müzakirə etməyə borcludurlar
[40] Monitorinq olunmuş 52 məhkəmə prosesindən 39-da
[41] İPM-in 63.3-cü maddəsinə əsasən, mübahisənin mahiyyəti izah olunduqdan sonra, hakimlər vəsatət vermək, öz tələblərini və ya vəsatətlərini əsaslandırmaq üçün proses iştirakçılarına söz verməlidirlər.
[42] Monitorinq olunmuş 52 məhkəmə prosesindən 50-də.

## 4. Tövsiyələr

### *Məhkəmə orqanlarına*

- Ofis məhkəmə iclaslarının gününü və vaxtını qabaqcadan elan etmək yolu ilə açıq məhkəmə araşdırması hüququndan tam istifadəni təmin etməyən məhkəmələrə tövsiyə edir ki, müvafiq məhkəmələrin binalarında quraşdırılan adi və ya elektron lövhələrdə həmin elanları yerləşdirməklə bu hüququ təmin etsinlər.
- Ofis hakimlərə tövsiyə edir ki, məhkəmə prosesinin iştirakçılarından və (və ya) üçüncü şəxslərdən işə aid məlumatları və ya tələblərinə dair sübutları təqdim etmələrini tələb etməklə İPM-də nəzərdə tutulmuş inkvizisional səlahiyyətlərdən daha tez-tez istifadə etsinlər.
- Çəkişmə prinsipinə daha çox riayət edilməsi üçün Ofis, hakimlərə tövsiyə edir ki, məhkəmə iclaslarında inzibatiorqanlarının nümayəndələrinin iştirakını təmin etsinlər.

### *İnzibati orqanlara*

- Ofis səlahiyyətli inzibati orqanları məhkəmə işlərinin effektiv həlli üçün əhəmiyyətli olan sənədləri və məlumatları vaxtında məhkəmələrə təqdim etməyə çağırır.